# LEYLA




Getsən bağdan əgər,
Güllər boynun əyər.
Bülbül qan-yaş tökər,
Ağzın şirin, şəkər.

N ə q ə r a t

Dedim adın ceyran,
Ceyran sənə heyran,
Ətri səndən alar,
Bağçadakı reyhan.

N ə q ə r a t

Qaşın, gözün qara,
Çəkmə məni dara,
Əynində al xara,
Canım qurban yara.

N ə q ə r a t:

Allı-güllü, Leyla,
Şirindilli, Leyla,
Ay qız, Leyla, hey!